## Böyük Summativ Qiymətləndirmə - Azərbaycan dili

# Hörmətli tələbələr doğru cavab A variantıdır

### Mətnlər

**1. Neft milyonçusu, Şəhər Dumasının üzvü, su kəmərləri komissiyasının yaradıcısı kimdir?**
A) Hacı Zeynalabdin Tağıyev C) Səməd Vurğun
B) Cəlil Məmmədquluzadə D) Hüseyn Cavid E) Firudin Bəy Köçərli

**2. Şollar suyunun analizi harada aparıldı?**
A) Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin zirzəmisində D) Şahdağ ərazisində
B) Dübrar dağlarından Kür çayına kimi geniş bir ərazidə E) Fransada
C) Avropada

**3. Tağıyev Şollar Su Kəmərinin çəkilməsi zamanında "kasıb şəhər idarəsi"nə nə qədər pul təklif etdi?**
A) 25.000 rubl B) 40.000 rubl C) 10.000 rubl D) 70.000 rubl E) 20.000 rubl

**4. Hacı Zeynalabdin Tağıyev Şollar Su kəmərinin çəkilişi üçün Bakıya kimin dəvət edilməsini təklif etmişdir?**
A) Ser Vilyam Harlayn Lindleyn C) Nik Vuyçiçi E) Raqnilda Kaota
B) Anna Sallivan D) Aleksandr Bell

**5. Kamala neçə il yaşamışdır?**
A) 17 il B) 10 il C) 40 il D) 14 il E) 15 il

**6. Kamala 17 yaşa çatanda cəmi neçə söz öyrənmişdir.**
A) 40 söz B) 10 söz C) 60 söz D) 70 söz E) 1000 söz

**7. "Cəmi 40 söz" mətnində qızlara Kamala və Amala adını kim verdi?**
A) Rid Sinqh B) Sinqhin xanımı C) Kaata D) Sallivan E) Nik Keyçiçi

**8. Kamala ilk dəfə hansı sözləri tələffüz edə bilmişdir ?**
A) "bəli" və "xeyr" D) Sinqh və xanımının adını
B) "salam" və "sağ ol" E) "ana" və "ata"
C) heç bir sözü tələffüz edə bilməmişdir

**9. Düzgün fikri seçin:**
A) Helen tarixə kar, kor və lal kimi ali təhsil alan ilk adam olaraq düşür
B) Helen 25 yaşında, ağır xəstəlik keçirir.
C) Helen vizual metod vasitəsi ilə danışmağı və yazmağı öyrənir
D) Helen tarix fakültəsini əla qiymətlərlə bitirib.
E) Helenin müəllimi Artur Keller olmuşdur.

**10. Helen Adams Kellerin bildiyi dillərdən biri yanlışdır:**
A) Türk dili B) İngilis dili C) Alman dili D) Rus dili E) Fransız dili

**11. Helenin müəlliminin adı nədir?**
A) Anna Sallivan B) Artur Keller C) Marta D) Keyt Adams E) Çisolm

**12. Helen hansı metod ilə danışmağı və yazmağı öyrənmişdi?**
A) Tadoma metodu D) Vizual metod
B) Eşitmə metod E) Motor vizuallaşdırma metod
C) Praktik metod

**13. “Çinarın şikayəti” şeirində çinar şikayətini kimə edir ?**
A) Şairə B) Mühəndisə
C) Rəssama D) Quşlara E) Uşaqlara

**14. “Çinarın şikayəti” şeirində çinar kimdən şikayət edir ?**
A) mühəndisdən C) şairdən
B) uşaqlardan D) kölgəsində dincələnlərdən E) turistlərdən

**15. “Çinarın şikayəti” şeirində çinarın mühəndisi şikayət etdiyi şair kim idi ?**
A) Səməd Vurğun C) Cəlil Məmmədquluzadə E) Mir Cəlal
B) Rəsul Rza D) Bəxtiyar Vahabzadə

**16. “Dua edən əllər” mətnində Albert nə üçün oxumaq istəmir ?**
A) Əlləri neçə yerdən sındığı üçün D) Pulu olmadığı üçün
B) Savadı olmadığı üçün E) Oxumağa həvəsi olmadığı üçün
C) Xəstə olduğu üçün

**17. “Dua edən əllər” mətnində Albrextin çəkdiyi əl şəkli kimin idi ?**
A) qardaşının C) atasının
B) müəlliminin D) dostunun E) özünün

**18. “Dua edən əllər” mətnində nə üçün birinci oxumağa Albrext gedir ?**
A) Püşkdə qalib gəldiyi üçün D) Albrext daha savadlı idi
B) Albrextin pulu daha çox idi E) Böyük qardaş olduğu üçün
C) Valideynləri onu daha çox istəyirdilər

**19. Xəzər dənizi ilə sərhəd olan dövlətlərdən biri yanlışdır:**
A) Ukrayna B) Rusiya C) Azərbaycan D) Qazaxıstan E) Türkmənistan

**20. Xəzər dənizinin əsas çirklənmə səbəbi nədir ?**
A) neft və qaz hasilatı , hövzəsinə tökülən çirkli su axınlarının olması
B) çimərlik kimi istifadə edilməsi
C) təmizləyici qurğuların daim işləməsi
D) flora və faunasının zəngin olması
E) sahəsinin böyük olması

**21. “Xəzər dənizi” mətni elmi üslubdadır. Çünki.........................**
A) Konkret rəqəmlər göstərilir, terminlərdən istifadə olunub
B) Bədii təsvir və ifadə vasitələrindən istifadə olunub
C) Nəzm formasında yazılıb
D) Dili sadədir
E) Dialekt sözlərdən istifadə olunub

**22. “Arzum jurnalist olmaq idi” mətnində müxbirin müsahibə götürdüyü jurnalist kim idi ?**
A) Vüsalə Mahir qızı C) Gülnar Mais qızı E) İsmayıl Məmmədli
B) Fikrət Xalıqov D) Nizami Cəfərov

**23. Gənc yaşlarında böyük uğurlara imza atan, APA holdinqə rəhbərlik edən jurnalist kim idi ?**
A) Vüsalə Mahir qızı C) Fikrət Xalıqov
B) Gülnar Mais qızı D) İsmayıl Məmmədli E) Nizami Cəfərov

24. **“Bahar nəğmələri” mətnində “Mənzərə” rəsminin müəllifi kimdir ?**
A) Səttar Bəhlulzadə C) Toğrul Nərimanbəyov
B) Müsyo Jorj D) Müsyo Aynard E) Albrext Durer

**25. Səttar Bəhlulzadənin çəkdiyi "Mənzərə" əsərinin əsl adı nə idi ?**
A) "Bahar nəğməsi"
B) "Torpağın arzusu"
C) "Kəpəzin göz yaşı"
D) "Tut ağacları"
E) "Sərv ağacları"

**26. Söhrab Tahirin "Birlik" şeirinin məzmunu haqqında deyilənlərdən biri yanlışdır:**
A) Məzmunu bizə "Muğan" əfsanəsini xatırladır
B) Azərbaycanın mərd oğul və qızlarının qəhrəmanlığı haqqındadır
C) Azərbaycan ordusunun qüvvəti və yenilməzliyinin sübutudur
D) Azərbaycan xalqının əzəli və əbədi olması
E) Xalqımız daima bir və bərabər bir qala kimi olması

**27. "Birlik" şeirində şair hansı xalqın birləşməsini istəyir ?**
A) Şimali və Cənubi Azərbaycanlıların
B) Türk xalqlarının
C) Bütün xalqların
D) Azərbaycan,rus
E) Slavyan

**28. "Sən" dili əvəzinə, "Mən" dili mətninin məzmunu haqqında deyilənlərdən hansı yanlışdır:**
A) Helenin həyatında özünü təsdiqində A.Sallivanın rolu daha böyük olmuşdur
B) Cəmiyyətdəki problem bir- birini düzgün anlamamaq
C) Bu problemin ailə daxilində özünü göstərməsi
D) Əsas tələb düzgün dilin seçilməməsi
E) İttiham edici "Sən dili"

**29."Sevgi Ağacı" mətninin məzmunu haqqında deyilənlərdən biri yanlışdır:**
A) Xalqın qüvvəti və yenilməzliyi
B) Sevginin varlığı və böyüklüyü
C) Ailənin rifahı üçün səbrli və dözümlü olmaq
D) Ailənin birliyi və və bərabərliyi
E) Ailədə vəzifə və hüquqlar

**30. "Mirzə Səfər" mətnində Mirzə Səfərin oğlanlarının təhsil almasına kim kömək edir ?**
A) Usta Zeynal
B) Həsən ağa
C) Hacı Qulu
D) Dövlət
E) Məktəb direktoru

**31. "Şəhidlər" şeirinin müəlifi kimdir?**
A) Oqtay Zəngilanlı
B) Rəsul Rza
C) Səməd Vurğun
D) Hüseyn Cavid
E) Əhməd Cavad

**32. Qədimdə yazı yazmaq üçün <u>misirlilər</u> hansı materiallardan istifadə edirdilər**
A) Papirus B) Kağız C) Parça D) Metal E) Sümük

**33. Qədimdə <u>yunanlar</u> yazı yazarkən hansı materiallardan istifadə edirdilər?**
A) Perqament B) Parça C) Kompüter D) Kağız E) Metal

**34. İlk əlifba harada yaranmışır ?**
A) Finikiyada B) Çində C) Yunanıstanda D) Misirdə E) Türkiyədə

## Dil

**35. Azərbaycan dili dövlət dili kimi nə zaman layiqli yerini tutub?**
A) 1995-ci il noyabrın 12-də
B) 1937-ci ildə
C) 2001-ci il avqustun 9-da
D) 2004-cü ildə yanvarın 1-də
E) 1978-ci ildə

**36. Dil haqqında səhv fikirdir:**
A) Dil insanlar arasında yeganə ünsiyyət vasitəsidir

B) Dil ictimai hadisədir
C) Dil irsiyyətlə bağlı deyil
D) İnsan orqanizminin fizioloji cəhətdən müəyyən şəkildə formalaşması dilin yaranması üçün vacib şərtlərdən biri olmuşdur
E) Psixoloji amillər dilin yaranması üçün vacib şərtlərdən biri olmuşdur

**37. Dil haqqında verilən fikirlərdən biri yanlışdır:**
A) Dil irsiyyət və irqlə bağlıdır
B) Dil ictimai hadisədir
C) Dil ünsiyyət vasitəsidir
D) İnsanın dik yeriməyə başlaması səsli ünsiyyətin yaranmasında mühüm amil olmuşdur.
E) Dil insana məxsusdur, heyvanlar ancaq münasibəti hiss edə bilərlər.

**38. Nitqə aid edilənlərdən biri yanlışdır?**
A) Sabitdir
B) Dil əsasında meydana çıxır
C) Ünsiyyət prosesidir
D) Fərdidir
E) Törəmədir

**39. Nitqin təzahür formaları variantlardan birində yanlış verilib.**
A) Görmə B) Dinləmə C) Danışma D) Oxu E) Yazı

**40. Hansı fikir daha dəqiqdir?**
A) Dil həm çoxmənalı, həm də omonim sözdür
B) Dil omonim sözdür
C) Dil sinonim sözdür
D) Dil çoxmənalı sözdür
E) Dil antonim sözdür

**41. Dilin neçə funksiyası vardır?**
A) 3 B) 2 C) 4 D) 5 E) 6

**42. Dilin funksiyalarına aid olanları seçin.**
1. İnsanlar arasında ünsiyyətə xidmət edir.
2. Dil sırf bioloji hadisədir.
3. Əşya və hadisələri adlandırır.
4. Fikri ifadə edir.
5. İrsi və irqidir.
A) 1,3,4 B) 1,2,4 C) 2,3,5 D) 1,2,3 E) 2,4,5

**43. *Dil ........ hadisədir.***
**Nöqtələrin yerinə hansı söz yazılmalıdır ?**
A) ictimai B) bioloji C) irsi D) irqi E) mənəvi

**44. Aşağıdakılardan biri dilin funksiyalarına aiddir:**
A) əşya və hadisələrin adlarını bildirmək
B) əşyaları rənglərlə təsvir etmək
C) hadisələrin qarşısını almaq
D) əl–qol hərəkətləri yaratma
E) idarə və təşkilatlarda münasibətləri tənzimləmək

**45. Mimika nədir?**
A) Üz əzələlərinin mənalı hərəkətidir
B) Razılıq bildirən nitq etiketidir
C) Yazıda geniş istifadə olunan üz hərəkətidir
D) Əl-qol hərəkətlərindən məqsədə uyğun istifadədir
E) Düzgün nitqə verilən şərtlərdən biridir

**46. Jest nədir?**
A) Əl-qol hərəkətlərindən məqsədəuyğun istifadədir

B) Yazılı nitqin vacib elementidir
C) Razılıq bildirən nitq etiketidir
D) Üz əzələlərinin  mənalı hərəkətidir
E) Düzgün nitqə verilən şərtlərdən biridir

## Yazı

**47. Yazının ilk yaranan növü hansıdır ?**
A) əşyəvi B) şəkli C) fikri D) hərfi E) şəkli və hərfi

**48. Yazının neçə tipi var:**
A) 4 B) 6 C) 2 D) 3 E) 8

**49. Təqvimdə dövlət bayramı günlərinin qırmızı rəngdə verilməsi hansı yazıya aid edilə bilər?**
A) İdeoqrafik (fikri)
B) Əşyəvi
C) fonoqrafik
D) Piktoqrafik (şəkli)
E) həm fonoqrafik, həm piktoqrafik

**50. Bir qabda nar, sim , daş,  qoyulması ilə fikrin ifadə edilməsi yazının hansı növünə aiddir?**
A) əşyəvi
B) ideoqrafik (fikri)
C) piktoqrafik (şəkli)
D) fonoqrafik (hərfi)
E) fonoqrafik və əşyəvi

**51. Yüksək gərginlikli elektrik şəbəkəsinin üstündə çəkilən kəllə şəkli hansı yazı növünə aiddir?**
A) Fikri yazı B) Heca yazısı C) Şəkli yazı D) Əşyəvi yazı E) Hərfi yazı

**52. Şirniyyat mağazasının üstündə çəkilmiş tort şəkli yazının hansı növünə aiddir?**
A) Şəkli B) Fikri C) Əşyəvi D) Hərfi E) Əşyəvi və fikri

**53. Yazının ən mükəmməl, ən çevik forması hansıdır ?**
A) Hərfi yazı
B) Fikri yazı
C) Şəkli yazı
D) Əşyəvi yazı
E) Həm fikri, həm hərfi

**54. $H_2O$ işarələri yazının hansı növünə aiddir?**
A) Fikri B) Şəkli C) Əşyəvi D) Hərfi E) Əşyəvi və fikri

**55. Zərgərlik mağazalarının vitrinində üzük şəkli hansı yazı növünə aiddir?**
A) Şəkli B) Fikri C) Əşyəvi D) Hərfi E) Həm hərfi, həm şəkli

**56.** 
**İşarələri yazının hansı növünə aiddir.**
A)Fikri B) Şəkli C) Hərfi D) Əşyəvi E) Həm fikri, həm hərfi

**57. Riyaziyyat dərslərində vurma, bölmə və toplama əməliyyatlarında istifadə olunan işarələr hansı yazı növünə aiddir?**
A) İdeoqrafik (fikri)
B) Piktoqrafik (şəkli)
C) Fonoqrafik (hərfi)
D) Həm piktoqrafik, həm ideoqrafik
E) Əşyəvi

**58. “Qara vəzir” nağılında hind padşahının Mələk xanıma bir qarpız, bir bıçaq göndərməsi yazının hansı növünə aiddir ?**
A) Əşyəvi B) Şəkli C) Fikri D) Hərfi E) Şəkli və fikri

**59. Qara rəngin matəm bildirməsi yazının hansı növünə aiddir ?**
A) Fikri B) Şəkli C) Hərfi D) Əşyəvi E) Sillabik

**60. Aptekin qapısında qaba sarılmış ilan şəkli yazının hansı növünə aiddir ?**

A) Fikri B) Hərfi C) Şəkli D) Əşyəvi E) Həm şəkli, həm hərfi

**61. Şəkli yazıya aid olanı göstərin:**
A) ət mağazasının vitrinindəki inək kəlləsi şəkli
B) aptekin pəncərəsindəki ilan şəkli
C) suyun H2O işarəsi ilə göstərilməsi
D) toy zamanı ələ xına qoyulması
E) nəqliyyat yolunda qoyulmuş nida işarəsi

**62. Yol işarələri yazının hansı növünə aiddir?**
A) İdeoqrafik (fikri) C) Fonoqrafik (hərfi)
B) Piktoqrafik (şəkli) D) Həm piktoqrafik, həm ideoqrafik E) Əşyəvi

**63. İdeoqrafik (fikri) yazıya aid deyil:**
A) Şirniyyat mağazasının üstündə tort şəkli
B) Elektrik şəbəkəsinin üstündə çəkilən kəllə şəkli
C) Bürcləri bildirən işarələr
D) Azərbaycan dili dərslərində cümlə üzvlərinin işarəsi
E) Bayrağın göy,qırmızı,yaşıl zolaqları

## Ədəbi dilin normaları

**64. Azərbaycan ədəbi dilinin neçə norması var ?**
A) 3 B) 2 C) 1 D) 8 E) 4

**65. Cümlədə xəbər mübtədadan əvvəldə işlənibsə, ədəbi dilin hansı norması pozulmuş sayılır?**
A) Qrammatik C) Orfoepik E) Orfoqrafik
B) Həm qrammatik, həm leksik D) Həm leksik, həm fonetik

**66. Ədəbi dilin qrammatik normasının əsas tələbi:**
A) Sözlər və cümlələr arasındakı əlaqələri nitqdə düzgün qurmaq
B) Milli sözləri alınma sözlərdən daha çox işlətmək
C) Sözün mənasına bələd olmaq, onu düzgün işlətmək
D) Sözü düzgün tələffüz etmək və düzgün yazmaq
E) Məhəlli, yerli sözləri nitqdə işlətməmək

**67. Ədəbi dilin leksik normasının əsas tələbi:**
A) Sözün mənasına bələd olmaq, onu düzgün işlətmək
B) Sözlər və cümlələr arasındakı əlaqələri nitqdə düzgün qurmaq
C) Milli sözləri alınma sözlərdən daha çox işlətmək
D) Sözü düzgün tələffüz etmək və düzgün yazmaq
E) Məhəlli, yerli sözləri nitqdə işlətməmək

**68. Adlara sıra ilə hansı qrammatik şəkilçilər artırılır?**
1. Hal şəkilçiləri 2.Mənsubiyyət şəkilçiləri 3.Şəxs(xəbərlik) şəkilçiləri 4. Cəm şəkilçisi(-lar$^2$)
A) 4,2,1,3 B) 4,1,2,3 C) 2,4,1,3 D) 1,2,3,4 E) 2,1,4,3

**69. *Gəlmişəm gəzməyə sizin dağlara* ( S. Vurğun)**
**Nümunədə ədəbi dilin hansı norması (normaları) pozulmuşdur**
A) Qrammatik C) Leksik E) Orfoepik
B) Fonetik D) Orfoqrafik

**70.”*Kənd xoruzları səs-səsə verib qışqırırdılar”.* Nümunədə ədəbi dilin hansı norması pozulmuşdur?**
A) Leksik C) Qrammatik E) Fonetik
B) Orfoepik D) Orfoqrafik

**71. “Dəniz küləyindən istifadə texnologiyası yalnız 25 illərdən sonra kütləvi şəkil alacaq.” Cümləsində ədəbi dilin hansı norması pozulmuşdur?**
A) Qrammatik C) Leksik E) Fonetik və leksik
B) Fonetik D) Orfoepik

***72. “Ölkənin ictimai həyatında yüksək hadisələr baş verməkdə idi*”.**
**Nümunədə ədəbi dilin hansı norması (normaları) pozulmuşdur?**
A) leksik C) fonetik E) fonetik və qrammatik
B) orfoqrafik D) orfoepik

**73. Orfoqrafik normaya uyğun olmayan sözü müəyyən edin.**
A) Mənəviyyət C) İstiqlaliyyət E) Kəşfiyyat
B) İqtisadiyyat D) Mədəniyyət

**74. [*Dünənnən xəstənin vəziyəti lap yaxşılaşdı*]**
**Tələffüz şəklində verilmiş cümlədə hansı sözdə orfoepik norma pozulmuşdur?**
A)[Xəstənin] B) [yaxşılaşdı] C) [lap] D) [dünənnən] E) [vəziyəti]

**75. Hansı nümunədə ədəbi dilin orfoepik norması pozulmuşdur?**
A) [dinməz] B) [ağsak’qal] C) [zəyif] D) [kəpənəx’] E) [sümbül]

**76. [Limannan gələn uşağların rəngi qaralmışdı]**
**Tələffüz şəklində verilmiş cümlədə hansı sözdə orfoepik norma pozulmuşdur?**
A) [uşağların] B) [limannan] C) [gələn] D) [qaralmışdı] E) [rəngi]

**77. Hansı sözlərdə orfoqrafik norma pozulub ?**
1.yeddi 2.yubley 3.zənbil 4.zümrüt 5.vücutnamə

A) 2,4,5 B)1,3,4 C)1,2,5 D) 2,3,4 E)1,3,5

**78. Verilmiş sözlərdən birində orfoepik norma pozulub:**
A) [paslammax] B) [şəra:fətdi] C) [kəpənəx ’ ] D) [daşdar] E) [yanacax]

**79. Verilmiş sözlərdən birində orfoepik norma pozulub:**
A) [güzəştsiz] B) [nöksan] C) [dumannı] D) [sevinç] E) [ağlıyır]

**80. Hansı sözün yazılışı səhvdir?**
A) küsgün B) mühacir C) film D) dövran E) müştəri

**81. Hansı sözün yazılışı səhvdir?**
A) lahiyə B) seçki C) rəqqas D) mətbəə E) fayl

**82. Sözün ədəbi dildəki tələffüz qaydası hansı normaya aiddir ?**
A) orfoepik B) leksik C) orfoqrafik D) sintaktik E) qrammatik

**83. “*Atamın bərk baxışı məni utanırdı”* cümləsində hansı norma pozulmuşdur?**
A) Yalnız leksik C) Leksik və qrammatik E) Fonetik
B) Orfoqrafik D) Orfoepik

**84. “Ürəyim ağrıyır” əvəzinə “könlüm ağrıyır” ifadəsini işlətsək, ədəbi dilin hansı norması pozular?**
A) Leksik B) Orfoepik C) Orfoqrafik D) Fonetik E) Qrammatik

**85. Məktəbliyə “şagird” əvəzinə “tələbə” deyilərsə, ədəbi dilin hansı norması pozular?**
A) Leksik B) Orfoepik C) Orfoqrafik D) Fonetik E) Qrammatik

**86. Nitqdə müəyyən miqdar sayından sonra gələn isim cəmdə işdədilərsə, bu halda ədəbi dilin hansı norması pozulmuş olar?**
A) Qrammatik B) Leksik C) Fonetik D) Orfoqrafik E) Fonetik və leksik

**87. Feil kökünə əvvəl vacib şəklinin, sonra isə məchul növün şəkilçisi artırılarsa, bu halda ədəbi dilin hansı norması pozulmuş olar?**
A) Qrammatik B) Leksik C) Fonetik D) Orfoqrafik E) Fonetik və leksik

**88. Hansı nümunədə qrammatik norma pozulmuşdur?**
A) beş qələmlər C) sözün təsiri
B) çayın mənbəyi D) uzağı görmək E) kitabın üzü

**89. Hansı sözdə qrammatik norma pozulmayıb?**
A) evlərinizdədir C) dostumuzlar
B) evlərdəkiniz D) özünüzlərki E) evinizlər

**90. Körpə quzu birləşməsində asılı tərəfi “gənc” sözü ilə əvəz etsək, ədəbi dilin hansı norması pozulmuş olar?**
A) Leksik B) Orfoqrafik C) Fonetik D) Sintaktik E) Qrammatik

**91. Sözün ədəbi dildəki yazılış qaydası necə adlanır ?**
A) **Orfoqrafik norma** D) Orfoepik norma
B) Fonetik norma E) Morfoloji norma
C) Sintaktik norma

**92. “*Sirrini verməyir sirdaşa dünya”* cümləsində ədəbi dilin hansı norması pozulmuşdur?**
A) qrammatik B) leksik C) fonetik D) orfoqrafik E) fonetik və leksik

**93. Hansı cümlədə xəbər kəmiyyətə görə mübtəda ilə uzlaşmamışdır?**
A) Onlar hər gün imtahana hazırlaşır.
B) O, hər gün imtahana hazırlaşır.
C) Biz hər gün imtahana hazırlaşırıq.
D) Siz hər gün imtahana hazırlaşırsınız.
E) Onlar hər gün imtahana hazırlaşırlar.

## Üslublar

**94.Dilin üslublarını öyrənən elm hansıdır?**
A) üslubiyyat B) ədəbiyyat C) morfologiya D) leksikologiya E) terminologiya

**95. Bu üslub üçün xarakterikdir:**
1)Yalnız şifahi şəkildə mövcud olur.
2) Nitqin sərbəstliyi və təbiiliyi əsasdır.
A) məişət B) rəsmi-işgüzar C) publisistik D) Elmi E) Bədii

**96. İkisi bədii üslubda özünü göstərir:**
1) Söz sırasının ciddi şəkildə qorunması
2) Standart formalardan istifadə edilməsi
3) Obrazlı söz ifadələrə üstünlük verilməsi
4) Fikrin hüquqi əsaslığına xüsusi diqqət yetirilməsi
5) Nəzm və nəsr formasında olması

A) 3,5 B) 1,3 C) 2,4 D) 4,5 E) 1,5

**97. Hansı xüsusiyyət elmi üslub üçün səciyyəvi deyil?**
A) poetizmlər C) termin sıxlığı E) təkmənalıq
B) müxtəlif qrafik vasitələr D) mürəkkəb cümlələr

**98. Avropanın bir çox televiziya kanallarında Alim Qasımov haqqında yayımlanan reportajlar hansı üslüba aiddir?**
A)publisistik B) rəmi-işgüzar C) bədii D) fərdi E) elmi

**99. Bu üsluba bəzən mətbuat dili də deyilir.**
A) publisistik B) rəsmi-işgüzar C) bədii D) elmi E) məişət

**100. Bədii üsluba xas xüsusiyyətdir:**
A) Bədii təsvir və ifadə vasitələrindən istifadə
B) Fikrin müəyyən müəyyən standart formalarda verilməsi
C )Yığcamlıq, sərbəstlik
D) Məntiqlilik, ardıcıllıq
E) Qrafik vasitələrdən istifadə

**101. Bu üslublardan biri ədəbi dilin şifahi və sərbəst təzahür formasıdır:**
A) Məişət B) Elmi C) Rəsmi-işgüzar D) Bədii E) Publisistik

**102. Məişət üslubu üçün səciyyəvi deyil:**
A) Mürəkkəb cümlələrdən geniş istifadə olunması
B) Gündəlik həyatda istifadə olunur
C) Nitqin sərbəstliyi və təbiiliyi
D) Yalnız şifahi şəkildə mövcudluğu
E) Ədəbi dilin normalarına əməl olunur

**103. Bu üslubda çoxmənalılığa yol verilmir, fikir birbaşa bir məna bildirir:**
A) Elmi B) Məişət C) Bədii D) Publisistik E) Rəsmi-işgüzar

**104. Aşağıdakılardan biri rəsmi sənədlərə aiddir:**
A) konstitusiya B) ərizə C) protokol D) izahat E) arayış

**105. – Təmizləyici qurğuların quraşdırlması və Xəzərə axıdılan sənaye- məişət tullantılarına nəzarət ətraf mühiti mühafizə proqramının başlıca istiqamətlərindən biridir.**
**– Dəniz ekosistemində zəhərli və ziyanlı maddələrin toplanması ekoloji fəlakətə aparan yoldur.**
**Mətn hansı üslubdadır:**
A) Elmi B) Bədii C) Məişət D) Rəsmi-işgüzar E) Publisistik

**106. İşgüzar sənədlər hansılardır ?**
1. Arayış 2. Sərəncam 3. Protokol 4. Konstitusiya 5. Ərizə 6. Əmr
A) 1,3,5 B) 2,3,4 C) 1,2,3 D) 4,5,6 E) 2,4,6

**107. Rəsmi sənədlər hansılardır?**
1) fərman 2) izahat 3) əmr 4) tərcümeyi-hal 5) xasiyyətnamə 6) konstitusiya

A) 1,3,6 B) 2,3,4 C) 4,5,6 D) 1,2,3 E) 2,4,5

**108. Verilən xüsusiyyətlərdən biri bədii üsluba aid deyil:**
A) Terminlər B) Mübaliğə C) Kinayə D) Təşbeh E) Epitet

**109. Verilən xüsusiyyətlərdən biri elmi üsluba aid deyil.**
A) Mətbuat dili C) Konkretlik E) Modal sözlər
B) Sxemlər D) Terminlər

**110. Hansı üslubdadır:**

***Axşamdır... Günəşin rəngi qırmızı,***
***Buludlar çəhrayı, üfüqlər laldır,***
***Yerlə vidalaşır o göylər qızı***
***Səyyar buludların rəngi xal-xaldır.***

A) Bədii B) Elmi C) Rəsmi-işgüzar D) Publisistik E) Məişət

**111. Publisistik üsluba aid edilənlərdən bir yanlışdır:**
A) Sənəd dili C) Mətbuat dili
B) Qəzet dili D) Radio dili E) Televiziya dili

**112. Publisistik üslub hansı qəzetin nəşrə başlaması ilə yaranıb?**

A) "Əkinçi" B) "Azərbaycan" C) "Kəşkül" D) "Ziya" E) "Dəbistan"

**113. Hansı fikir publisistik üsluba aid deyil?**
A) Gündəlik həyatda insanların bir-biri ilə ünsiyyət saxladığı dildir.
B) Publisistik üslubun əsas xüsusiyyəti fikrin hamı tərəfindən anlaşıqlı,aydın olmasıdır.
C) Bu üslub mətbuatın, radio-televiziyanın dilidir.
D) Publisistik üslubun "Əkinçi" qəzetinin nəşrə başlaması ilə qoyulub.
E) Publisistik üslubun şifahi və yazılı formaları var.

**114. Biri ədəbi dilin funksional üslublarına aid deyil :**
A) fərdi üslub C) elmi üslub
B) bədii üslub D) məişət üslubu E) rəsmi-işgüzar üslub

**115. Termin nəyə deyilir?**
A) müxtəlif ixtisas və peşə ilə bağlı sözlərə C) əksmənalı sözlərə
B) yaxınmənalı sözlərə D) məcazi mənalı sözlərə E) çoxmənalı sözlərə

**116. Termin işlənən cümlələri müəyyən edin.**
1. Dostumdan gələn xəbər məni sevindirdi. 4. İçəridəki əşyaları yaxşı-yaxşı sayın.
2. Aşıq şeiri janrlarından biri də qoşmadır. 5.Təknədəki çörəyin ətri adamı iştaha gətirirdi.
3. Sayın mənaca iki növü var.

A) 2,3 B) 1,5 C) 3,5 D) 1,4 E) 1,2

**117. Hansı variantda "sifət" sözü termindir?**
A) Sifət əşyanın əlamətini və keyfiyyətini bildirən əsas nitq hissəsidir.
B) Nazlının sifəti utandığından qıpqırmızı olmuşdu.
C) Onun sifətində yara izi qalmışdı.
D) Qocanın qırışmış sifətində illərin yorğunluğu hiss olunurdu.
E) Məmməd sifətini turşudub üzünü yana çevirdi.

**118. Hansı variantda "zərf " sözü termindir?**
A) Zaman zərfi hərəkətin icra olunduğu zamanı bildirir.
B) Raya zərfi açmaq üçün həyəcanlanırdı.
C) Məktubu qoymağa zərf tapa bilmədim.
D) Göndərilən zərfin üzərində sizin adınız yazılıb.
E) Zərfin içərisində önəmli məlumatlar var idi.

**119. *Sözün də su kimi lətafəti var***
***Hər sözü az demək daha xoş olar* misralarında hansı təsvir vasitəsindən istifadə olunmuşdur?**

A) təşbeh B) epitet C) metafor D) mübaliğə E) sinekdoxa

**120."qızıl söz", "soyuq duyğular", "qızıl payız"** birləşmələrində hansı bədii təsvir vasitəsi işlənmişdir?

A) epitet B) təşbeh C) metafor D) mübaliğə E) sinekdoxa

**121. Nümunədə fərqləndirilmiş sözlər hansı bədii təsvir vasitəsidir?**

**Daş qəlbli insanları** neylərdin, ilahi ?
Bizdə bu **soyuq qanları** neylərdin, ilahi ?!

A) epitet B) təşbeh C) metafor D) mübaliğə E) simvol

**122. Nümunədə hansı bədii təsvir vasitəsi işlədilmişdir?**

Saçın kimi qıvrılan dalğalara dalaydım,
Dalıb ilham alaydım.

A) təşbeh B) epitet C) metafor D) mübaliğə E) simvol

**123.*Mən aşiqəm Salyana,***
***Dara zülfün, sal yana,***
***Necəsən bir ah çəkəm,***
***Kür quruya, sal yana*** **şeirdə hansı bədii təsvir vasitəsi işlənib ?**

A) mübaliğə B) litota C) metafora D) metonomiya E) sinekdoxa

.

**124. "*Göy kişnər, bulud ağlar*" ifadəsində hansı təsvir vasitəsindən istifadə olunub?**

A) metafor B) mübaliğə C) təşbeh D) sinekdoxa E) litota

**125. Müstəqil Azərbaycan dövlətinin yaranıb möhkəmlənməsi ilə yüksək sürətlə inkişaf etmiş üslub hansıdır?**

A) rəsmi-işgüzar B) bədii C) publisistik D) məişət E) elmi

**126. Hansı üslub daha gec yaranıb inkişaf emişdir?**

A) rəsmi-işgüzar B) publisistik C) elmi D) məişət E) bədii

**127. Məntiqi ardıcıllığı tamamlayın.*Qanun qərar sərəncam*..........**

A) fərman, əmr B) elan, ərizə C) protokol, reklam D) bildiriş, məktub E) izahat, arayış

**128. Məntiqi ardıcıllığı tamamlayın.*Bildiriş izahat arayış*...............**

A) protokol, reklam C) məcəllə, qərar E) fərman, sərəncam
B) əmr qanun D) konstitusiya akt

**129. Bu üslub tarixi təkamül prosesində formalaşmış standart formalardan kənara çıxmır.**

A) Rəsmi-işgüzar B) Elmi C) Bədii D) Publisistik E) Məişət

**130. "*Meşənin calalına baxdıqca qoca palıdın ürəyi dağa dönürdü.*" cümləsinin üslubunu müəyyən edin.**

A) Bədii B) Elm C) Rəsmi-işgüzar D) Publisistik E) Məişət

**131."Əziz tamaşaçılar! Xəbərlərin növbəti buraxılışı saat 12-də olacaq" ifadəsinin üslubunu müəyyən edin.**

A) publisistik B) bədii C) elmi D) məişət E) rəsmi-işgüzar

**132."Genlər nə qədər davamlı olsalar da, yenə müxtəlif daxili və xarici amillərin təsiri ilə mutasiyaya uğrayır." cümləsinin üslubunu müəyyən edin.**

A) Elmi B) Məişət C) Bədii D) Publisistik E) Rəsmi-işgüzar

**133. Hansı sözlər yalnız termin kimi işlənir?**

1.enerji 2.folklor 3.bölmə 4.sintaksis 5.hürufizm 6.dil

A) 2,4,5 B) 1,2,6 C) 1,2,4 D) 2,4,6 E) 1,3,5

**134. Hansı sözlər həm termin, həm də ümumişlək söz kimi işlənə bilər?**

1.bənd 2.leksika 3.say 4.divan 5.relyef 6.metafor

A) 1,3,4 B) 2,3,5 C) 2,4,6 D)3,4,5 E) 1,2,3

**135. Ali məktəbə qəbul olan insandan özü haqqında məlumat yazıb təqdim etməsi istənilir.Bu zaman yeni tələbə olan şəxs hansı yazı nümunəsindən istifadə edəcək?**
A) tərcümeyi-hal B) ərizə C) referat D) arayış E) rəy

**136.Rəsmi sənədlərlə bağlı doğru olanları təyin edin.**
1.Fikrin standart formalarla uyğun yığcam verilməsi
2.Obrazlı ifadələr çoxmənalı sözlərdən istifadə
3.Bu üslubun inkişafı dövlətçilik ənənələri ilə sıx bağlıdır
4.Fərdi nitq ünsürləri sənədləri fərqləndirir
5.Arxaik leksika və əski sintaktik konstruksiyalar uzun müddət mühafizə olunur
A) 1,3,5 B) 2,4 C) 1,3,4 D) 4,5 E) 2,3,5

**137. Bunlardan yalnız birini rəsmi-işgüzar üslubun ən sərbəst forması hesab etmək olar?**
A) məktub B) ərizə C) əmr D) arayış E) fərman

**138. Hansı işgüzar sənəd fərdin özü tərəfindən hazırlanmır?**
A) arayış B) izahat C) ərizə D) tərcümeyi-hal E) etibarnamə

**139.İdman yarışının keçiriləcəyi yer və vaxt haqqında divara vurulan elan aşağıdakılardan hansıdır?**

A) Afişa B) Reklam C) Anons D) Bildiriş E) Məlumat

**140. Uyğunsuzluğu müəyyən et.**

*İzahat, ərizə, tərcümeyi-hal,........................*

A) Əmr B) Elan C) Məktub D) Vəkalətnamə E) Teleqram

**141. Vulqar sözlərə aid deyil:**
A) Natəmiz B) Binamus C) Sarsaq D) Kaftar E) Gorbagor olmaq

**142. Əksmənalı sözlər hansı cərgədədir?**
A) isti-soyuq B) elm-bilik C) geniş-uzun D) dağ-dərə E) uca-hündür

**143. Frazeoloji birləşmə hansıdır?**
A) dilotu yemək B) mahnı oxumaq C) çay içmək D) söhbət etmək E) rəqs etmək

**144. Qara sözü hansı variantda məcazi mənada işlənmişdir?**
A) qara xəbər C) qara parça
B) qara torpaq D) qara çanta E) qara pişik

**145. Yumşaq sözü hansı variantda həqiqi mənada işlənmişdir?**
A) yumşaq yastıq C) yumşaq xasiyyət
B) yumşaq cəza D) yumşaq rəftar E) yumşaq səs

**146. Hansı cümlədə məcazi mənada işlənmiş söz vardır?**
A) Onların arasında soyuq münasibət yaranmışdı.
B) Aylin bacısına şəkilli kitab aldı.
C) Arif şirin çayı içib həyətə düşdü.
D) Lalə şirin çörəyi xoşlayır.
E) Bu gün hava çox soyuq idi.

**147. Hansı cümlədə frazeoloji birləşmə işlənmişdir?**

A) Bu xəbəri eşidəndə Nəriman cin atına mindi.
B) Qılıncı var gücü ilə düşmənin başına endirdi.
C) Ehtiyatsızlıqdan çanta əlindən yerə düşdü.
D) Rüstəmin ən böyük arzusu ali məktəbə daxil olmaqdır.
E) O, gözəl, gənc bir qız idi.

**148. Doğru fikirləri müəyyən edin:**
1. nitqin sərbəstliyi və təbiiliyi-məişət üslubu
2. məntiqilik, ardıcıllıq, konkretlik- elmi üslub
3. standart formalardan istifadə- publisistik üslub
4. şeir, nəsr ,dramaturgiya dili- bədii üslub
5. obrazlı və emosional nitq formasıdır- rəsmi- işgüzar üslub

A) 1,2,4 B) 2,3,5 C) 2,3,4 D) 1,3,5 E) 1,2,3

**149. Yanlış fikirləri müəyyən edin:**
1. nitqin sərbəstliyi və təbiiliyi-məişət üslubu
2. məntiqilik, ardıcıllıq, konkretlik- elmi üslub
3. standart formalardan istifadə- publisistik üslub
4. şeir, nəsr ,dramaturgiya dili- bədii üslub
5. obrazlı və emosional nitq formasıdır- rəsmi- işgüzar üslub

A) 3,5 B) 1,4 C) 1,2 D) 2,5 E) 3,4

**150. Publisistik üslubun neçə forması var?**

A) 2 B) 4 C) 6 D) 8 E) 3